**Azərbaycan Dövlət İqtisad Universitetinə**

Ulu Öndər Heydər Əliyevin yaratdığı müstəqil Azərbaycan Respublikası bu gün cənab İlham Əliyevin yüksək intellekti, güclü iradəsi, müdrik siyasəti sayəsində öz tarixinin ən qüdrətli dövrünü yaşayır. Möhtərəm Prezidentin dərin zəkası, böyük əzmkarlığı nəticəsində Azərbaycan regionun lider dövləti olaraq dünyada söz sahibinə çevrilmişdir. Ölkədə həyata keçirilən kompleks tədbirlər və dövlət proqramlarının uğurlu icrası digər sahələrin inkişafı ilə yanaşı, təhsil sahəsində də önəmli nailiyyətlərin əldə olunmasına səbəb olmuşdur. Bu gün Azərbaycan Respublikasının Birinci vitse-prezident Mehriban xanım Əliyeva da təhsil sahəsinə çox həssaslıqla yanaşır, gələcək nəslin elmli, bilikli yetişməsi üçün mühüm işlərə imza atır.

Ölkəmizdə fəaliyyət göstərən təhsil ocaqları arasında Azərbaycan Dövlət İqtisad Universitetinin özünəməxsus yeri vardır. Dövlət İqtisad Universiteti sözün əsl mənasında peşəkar iqtisadçıların və görkəmli alimlərin yetişdirildiyi, uğurlu fəaliyyəti ilə fərqlənən təhsil ocağıdır.

Fərəhli haldır ki, Azərbaycanın paytaxtında İqtisad Universiteti kimi ali təhsil ocağı fəaliyyət göstərir. Şəhərimizin sakinləri hər zaman bu təhsil ocağı ilə fəxr edirlər, onun uğurlarına sevinirlər. Bu müəssisə bütün dövrlərdə abituriyentlər arasında öz nüfuzunu qoruyub saxlayıb. Bu ali təhsil müəssisəsinin məzunları daim ölkə həyatının sosial-iqtisadi, siyasi, mədəni və digər sahələrində fəal iştirak ediblər. Onlar bu gün də universiteti ölkədə və onun hüdudlarından kənarda laiqincə təmsil edir, dövlət başçısı cənab İlham Əliyev tərəfindən həyata keçirilən çoxsahəli inkişaf prosesinə öz töhfələrini verirlər.

Son illərdə həyata keçirilən tədbirlər nəticəsində universitet mühüm iqtisadi-elmi mərkəzə çevrilmişdir. Burada yaradılmış yaradıcı mühit təhsil alan tələbələrin savadlı, bilikli, bacarıqlı mütəxəssislər kimi formalaşmasında xüsusi rol oynayır. Prezident İlham Əliyevin “Azərbaycanda təhsil sisteminin təkmilləşməsinə çox böyük diqqət göstərilir. Təhsil bizim gələcəyimizdir” sözlərinin əyani sübutunu biz bu gün Dövlət İqtisad Universitetinin uğurlu fəaliyyətində görürük.

Azərbaycan Dövlət İqtisad Universitetinin rəhbərliyini və kollektivini şəhərimizin sakinləri adından universitetin 90 illik yubileyi münasibətilə səmimi qəlbdən təbrik edir, onlara cansağlığı, uzun ömür və gələcək fəaliyyətlərində yüksək nailiyyətlər arzu edirəm.

***Hörmətlə,***
***Bakı Şəhər İcra Hakimiyyətinin Başçısı Eldar Əzizov***